

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 212 (23.624)

*5 dekabr 2020-ci il, şənbə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Dekabrın 4-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şəhidlər xiyabanında olub və şəhidlərimizin əziz xatirəsini dərin ehtiramla yad ediblər.

Dövlətimizin başçısı "Əbədi məşəl" abidəsinin önünə əklil, birinci xanım Mehriban Əliyeva gül dəstəsi qoyublar.

Azərbaycanın Dövlət Himni səsləndirilib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 3-də Nyu-Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində keçirilən Xüsusi Sessiyasında çıxış edib.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Dekabrın 4-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri Seyid Abbas Musəvini ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik etmişdir. Ali Məclisin Sədri Azərbaycan-İran əlaqələrindən, eləcə də Naxçıvan Muxtar Respublikası ilə İranın yaxın vilayətləri arasındakı əməkdaşlıqdan bəhs etmiş, ikitərəfli münasibətlərin perspektivlərini diqqətə çatdırmışdır.

Seyid Abbas Musəvi Ali Məclisin Sədri ilə görüşdən və Naxçıvana səfərindən böyük məmnunluq duyduğunu bildirmişdir. Azərbaycan Respublikasının şanlı qələbəsi münasibətilə Ali Məclisin Sədrinə təbriklərini çatdıran səfir İranın Azərbaycana dəstək verdiyini və xalqımızın sevincinə şərik olduğunu vurğulamışdır.

Söhbət zamanı qarşılıqlı maraqdoğuran məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Seyid Əhməd Hüseyni görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## İnformasiya və rabitə sahəsinin inkişafı təmin edilib



*Muxtar respublikada yeni texnologiyaların ictimai həyatın bütün sahələrində geniş surətdə tətbiqi davamlı inkişafı təmin etmiş, əhalinin gündəlik fəaliyyətinə nüfuz edərək onun rahatlığına və rifahına yeni imkanlar yaratmışdır.*

Son dövrlərdə muxtar respublikada mobil rabitə operatorlarının fəaliyyətinin təşkili, mövcud koordinattipli avtomat telefon stansiyaların elektrontipli avtomat telefon stansiyaları ilə əvəz edilməsi, fiber-optik kabel xətlərinin çəkilişi, 4G və "Naxtel" simsiz telefon xidmətinin istifadəyə verilməsi, Naxçıvan Dövlət Televiziya və Radiosunun internet üzərindən yayımlanması, "Universitet" televiziyasında videodərslərin hazırlanması və distant tədrisin tətbiqi məqsədilə avadanlıqların quraşdırılması, iqtisadiyyatın bütün sahələrində informasiya-kommunikasiya texnologiyalarının tətbiqinin uğurla davam etdirilməsi bu sahənin sürətli inkişafına təkan vermişdir.

Muxtar respublikada elektron hökumətin formalaşdırılması sahəsində də ardıcıl tədbirlər aparılmış, Vətəndaşların Müraciətləri üzrə Elektron Qeydiyyat və İdarələrarası Elektron Sənəd Dövriyyəsi Sistemləri istifadəyə verilmiş, dövlət orqanlarına, vətəndaşlara və sahibkarlıq subyektlərinə elektron imzaların verilməsi davam etdirilmişdir. Bundan əlavə, "Evədək optika" layihəsi üzrə görülən işlər də telekommunikasiya sahəsində yeniliklərin əldə olunmasına şərait yaratmışdır.

Muxtar respublikanın telekommunikasiya sisteminin yenilənməsi istiqamətində Naxçıvan şəhərini, Şərur, Babək, Ordubad, Şahbuz və Sədərək rayonlarını əhatə edən yeni nəsil telekommunikasiya xidmətlərindən istifadəyə imkan verən 4-cü nəsil avtomat telefon sistemləri istifadəyə verilmişdir.

Rabitə xidmətlərindən istifadə qismində 1 yanvar 2020-ci il tarixə muxtar respublikada əsas telefon aparatlarının sayı 73 min 137 nömrəyə çatıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvanpoçt" publik hüquqi şəxsin yaradılması haqqında 2019-cu il 4 noyabr tarixli Sərəncamı bu sahədə xidmətlərin müasir tələblərə uyğun qurulmasına şərait yaratmışdır. Muxtar respublika üzrə, ümumilikdə, 188 poçt şöbəsi mövcuddur ki, bunun da 26-sı şəhər, 162-si isə kəndlərdə fəaliyyət göstərir.

Əhalinin maddi rifah halının yaxşılaşmasının və informasiya texnologiyaları sahəsində yaradılmış şəraitin nəticəsidir ki, 1 yanvar 2020-ci il tarixə muxtar respublikanın ev təsərrüfatlarında, müəssisə və təşkilatlarda 132,4 minə yaxın kompüter mövcud olmuşdur ki, bu da 1 yanvar 2011-ci il tarixə olan



göstəricidən 1,6 dəfə çoxdur. 2019-cu ildə kompüter istifadəçilərinin sayı 352,6 min nəfər, mobil telefonlar nəzərə alınmaqla internet istifadəçilərinin sayı 391,5 min nəfər olmuşdur. 2010-cu illə müqayisədə kompüter və internet istifadəçilərinin sayı hər iki halda 2 dəfə artmışdır.

Muxtar respublikada informasiya-kommunikasiya texnologiyalarının sürətli inkişafı bu sahə üzrə göstərilən xidmətlərin dəyərinin dinamik artımına da zəmin yaradıb. Belə ki, informasiya və rabitə xidmətlərinin dəyəri 2020-ci ilin yanvar-oktyabr aylarında 47 milyon 323 min manat olmuşdur ki, bu da 2010-cu ilin müvafiq dövründəki göstəricidən 1,6 dəfə çoxdur.

***Yanvar-oktyabr ayları üzrə informasiya və rabitə xidmətlərinin dəyəri, min manat***




Cari ilin yanvar-oktyabr aylarında muxtar respublikada informasiya və rabitə sahəsinin inkişafına 1 milyon 443 min 800 manat vəsait yönəldilmişdir.

Bu dövr ərzində Şərur rayonunun Muğancıq-Mehrab və Məmmədsabir, Babək rayonunun Nəcəfəlidizə, Ordubad rayonunun Vənənd və Culfa rayonunun Camaldın kəndlərində yaradılan kənd mərkəzlərində yeni rabitə evləri istifadəyə verilmiş, Şərur rayonunun Muğancıq-Mehrab kəndində 192, Məmmədsabir kəndində 256, Babək rayonunun Nəcəfəlidizə kəndində 32, Ordubad rayonunun Vənənd kəndində 568 və Culfa rayonunun Camaldın kəndində 320 nömrə tutumlu yeni nəsil avtomat telefon stansiyaları quraşdırılmışdır.

Culfa rayonunda Yeni Nəsil Telekommunikasiya Sisteminin yaradılması, rabitə evinin yenidən qurulması, Ordubad rayonunda Dəstə Radio-Televiziya Verici Stansiyası üçün binanın tikintisi başa çatdırılmış, Kəngərli rayonunda rabitə evinin, Sədərək rayonunda Radio-Televiziya Ötürücü Stansiyası üçün binanın tikintisi davam etdirilmişdir.

Bundan əlavə, Naxçıvan şəhərində "Naxtel" Məhdud Məsuliyyətli Cəmiyyətinin yeni binası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Bu gün həyatı yeni texnologiyalarsız təsəvvür etmək mümkün deyil"*** fikrinə uyğun olaraq həyata keçirilən uğurlu siyasət davamlı və dinamik inkişafı, əhalinin müasir texnologiyalardan istifadə imkanlarını daha da artıracaqdır.

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Statistika Komitəsinin mətbuat xidməti***

# Mütərəqqi inkişaf kursu və uğurlu siyasətin möhtəşəm nümunəsi

*Ölkəmizdə aparılan islahatların davamı olaraq Naxçıvan Muxtar Respublikasında son 25 ildə həyata keçirilən müasirləşmə strategiyası və uğurlu sosial-iqtisadi siyasət nəticəsində yüksək iqtisadi artım dinamikası formalaşıb. Bu müddət ərzində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sosial-iqtisadi siaysətinin qayəsi, ilk növbədə, əhalinin sosial rifahının daha da yaxşılaşdırılması zəminində Naxçıvanı qabaqcıl bir iqtisadi rayona çevirməkdən ibarət olub.*



1995-ci ildən etibarən Naxçıvan Muxtar Respublikasında bütün Dövlət proqramlarının və investisiya layihələrinin uğurla icrasına, elm, təhsil, səhiyyə, sosial təminat, mədəniyyət və idman sahəsində həyata keçirilən dövlət siyasətinin dəstəklənməsinə, muxtar respublikada müasir infrastrukturun qurulmasına, yeni yolların inşasına, içməli su və kanalizasiya sistemlərinin yaradılmasına nail olundu. Muxtar respublikamızda əldə edilən uğurlar məqsədyönlü şəkildə həyata keçirilən islahatların, siyasi-iqtisadi baxımdan sabit, davamlı və dayanıqlı inkişafın təzahürü kimi çıxış etdi. Düşünülmüş iqtisadi siyasət nəticəsində makroiqtisadi sabitlik əldə edildi, davamlı iqtisadi artımın əsası qoyuldu, eləcə də əhalinin həyat səviyyəsi yaxşılaşdı, qiymətlər sabitləşdi, özəl sektorun inkişafının dəstəklənməsi mexanizmi yaradıldı.

Muxtar respublikanın sosial-iqtisadi inkişafına dair təsdiq edilmiş müvafiq proqramlar infrastruktur sahələrinin bərpası və genişləndirilməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılması ilə əhalinin layiqli həyat tərzinin təmin olunmasına müstəsna töhfələr verdi. Əzəmətli görkəmini bərpa edən, həyata keçirilən abadlıq-quruculuq işləri nəticəsində siması büsbütün dəyişərək ən gözəl və müasir bölgəyə çevrilən Naxçıvan sürətli iqtisadi inkişafın da əsas ünvanlarından biri kimi tanındı. İnvestisiya kapitalının davamlı yerləşdirilməsi sayəsində muxtar respublikada əsas makroiqtisadi göstəricilər dəfələrlə artdı.

Bütün bunların nəticəsidir ki, 2019-cu ildə 1995-ci ilə nisbətən ümumi daxili məhsulun 65 dəfə artması müşahidə olundu. Muxtar respublikada 2020-ci ilin yanvar-oktyabr aylarında 2 milyard 292 milyon 937 min manatlıq ümumi daxili məhsul istehsal olunub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur.

Makroiqtisadi sabitlik şəraitində bu iqtisadi artım sosial rifahı və yüksək həyat standartlarına sürətlə transformasiya edib, 2019-cu ildə 1995-ci ilə nisbətən orta aylıq əməkhaqqı 30,5 dəfə artıb. İnsanların həyat səviyyəsinin əsas göstəriciləri olan adambaşına düşən ümumi daxili məhsulun həcminin isə 47,2 dəfə artması muxtar respublikada yürüdülən iqtisadi siyasətin mühüm uğurları sırasındadır.

Hazırkı dövrdə muxtar respublikanın sosial-iqtisadi inkişafında, yeni iş yerlərinin yaradılmasında, ixrac potensialının gücləndirilməsi və idxaldan asılılığın minimuma endirilməsində sənaye potensialının çox mühüm rol oynadığını xüsusi qeyd etmək lazımdır. Qısa zaman ərzində sənaye mərkəzinə çevrilən Naxçıvanda sənayenin misilsiz yüksəlişinin səbəbi muxtar respublikanın nail olduğu təbii sərvətlər və həyata keçirilən uğurlu dövlət siyasətidir. Sahibkarlara verilən güzəştli maliyyə dəstəyi nəticəsində muxtar respublikada fəaliyyət göstərən sənaye müəssisələrinin sayı 11 dəfə artaraq 442-yə çatıb. Qədim diyarımızda 2019-cu ildə ümumi daxili məhsulun sahə strukturunda sənaye 27,6 faizlik payla ilk yerdə təmsil olunub. Yanvar-oktyabr aylarında sənaye üzrə 900 milyon 258 min 500 manat dəyərində məhsul istehsal edilib ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 1,3 faiz çoxdur. 2009-cu ildə bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinə 15 milyon 762 min manat kredit verilib ki, bu da 1995-ci ilin müvafiq göstəricisini 510 dəfə üstələyir. İnvestisiya prosesi iqtisadi artımı təmin edən mühüm proses olduğundan sənaye sahəsinə yönəldilmiş investisiyaların həcmində də hər il dinamik artım müşahidə olunub, təkcə 2019-cu ildə bank və kredit təşkilatları tərəfindən təsərrüfat subyektlərinə 10 milyon 944 min 900 manat kredit verilib ki, bu da bir il öncəki göstəricidən 2,1 dəfə çox olmaqla sənaye məhsulunun həcminə öz müsbət təsirini göstərib. İlk dəfə 2019-cu ildə muxtar respublikada sənaye məhsulunun dəyəri bir milyard manatı ötüb ki, bu, təqribən, son 25 ildə 111,1 dəfə artım deməkdir.

Elektrik enerjisi istehsal edən müəssisələrin sayının 1-dən 8-ə çatdırılması enerji təhlükəsizliyini təmin etməklə sənayeləşmə siyasətinin genişlənməsinə yollar açıb. 2019-cu ildə ölkə üzrə Günəş elektrik stansiyalarında əldə olunan elektrik enerjisinin 88,7 faizi muxtar respublikada istehsal edilib.

Kənd təsərrüfatı məhsulunun istehsal həcminin dinamik şəkildə yüksəlməsi, sənayenin strukturunda ən böyük paya sahib olan yeyinti sənayesinin istehsalı üçün xammal bazasının artması ilə emal sənayesinin inkişafına səbəb olub. Müəyyən olunmuş keyfiyyət standartları çərçivəsində əhalinin əsas qida məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, dövlət ehtiyatlarının yaradılması nəticəsində taxılı uzun müddət saxlamağa imkan verən anbarların, kənd təsərrüfatı məhsullarının saxlanması və satışını təmin edən soyuducu anbarların istifadəyə verilməsi muxtar respublikada hər zaman prioritet məsələ olan ərzaq təhlükəsizliyinin təmin olunmasına əlverişli zəmin yaradıb.

Aqrar sektorda aparılan islahatlar, ona göstərilən maliyyə və texniki dəstəyin nəticəsində 2019-cu ildə 1995-ci ilə nisbətən kənd təsərrüfatı məhsulunun həcmi 13,1 dəfə yüksəlib. 2020-ci ilin yanvar-oktyabr aylarında 431 milyon 390 min 100 manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunub ki, bu da 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə 4,2 faiz çoxdur. Kənd təsərrüfatında yüksək məhsuldarlığın təmin edilməsi, fermerlərə maliyyə dəstəyinin daha səmərəli təşkili və ərzaq təhlükəsizliyinin daim möhkəmləndirilməsi aqrar sahədə dövlət siyasətinin mühüm istiqaməti olub.

İqtisadi inkişaf və rifah, maliyyələşmə və biznes mühiti arasında möhkəm əlaqənin yaradılması sayəsində bu gün muxtar respublikada istehsal olunan məhsul növü 10-dan 384-ə çatdırılıb, bunun da 127-si ərzaq, 257-si qeyri-ərzaq məhsuludur. Hazırda 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilməklə daxili bazarın qorunmasına nail olunub.

Sahibkarlığın inkişafı, infrastrukturun yaradılması, xidmətlərə çıxışın asanlaşdırılması ixracatın stimullaşdırılmasına şərait yaradıb, 2009-cu ildən etibarən müsbət saldo yaranan xarici ticarət dövriyyəsində 2019-cu ildə 1995-ci ilə nisbətən 26,1 dəfə artım əldə olunub. İstehsalın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaradıb, 2020-ci ilin yanvar-oktyabr aylarında 386 milyon 846 min 600 ABŞ dolları dəyərində xarici ticarət dövriyyəsi qeydə alınıb. İxracın dəyəri 2019-cu ilin müvafiq dövrü ilə müqayisədə artaraq 334 milyon 49 min ABŞ dolları təşkil edib, 281 milyon 251 min 400 ABŞ dolları dəyərində müsbət saldo yaranıb.

İnvestisiya prosesi ölkənin gələcəyini formalaşdırır, rəqabət qabiliyyətini gücləndirir. Əsas kapitala investisiya qoyuluşu 1995-ci ilə nisbətən 2019-cu ildə 343 dəfə artıb ki, bunun da 92 faizi tikinti-quraşdırma işlərinə sərf olunub. Nəticədə, saysız-hesabsız istehsal və sosial obyektlər tikilib istifadəyə verilib, kəndlə şəhər arasındakı fərq aradan qaldırılıb, rayonların tarazlı inkişafına nail olunub, bütün sahələrdə infrastrukturun keyfiyyəti ən yüksək səviyyəyə çatdırılıb. 2019-cu ilə qədər 562 inzibati bina, 284 təhsil, 285 səhiyyə müəssisəsi, 491 mədəniyyət obyekti, 171 nasos stansiyası, 416 subartezian quyusu, 52 idman obyekti, 516 fərdi ev, 982 istehsal və xidmət obyekti, 181 körpü, 4 qəsəbə, 151 kənd mərkəzi tikilən, yenidən qurulan və ya əsaslı təmir olunan muxtar respublikamızda təkcə 2019-cu ildə 271 müxtəlif təyinatlı obyekt tikilib, yenidən qurulub və ya əsaslı təmir olunub, 159 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilib.

Blokada şəraitində yaşayan muxtar respublikamız imza atdığı nailiyyətlərlə, qazandığı sosial-iqtisadi müvəffəqiyyətlərlə ölkədə lider mövqeyə yüksəlməyi bacardı. Muxtar respublikada həyata keçirilən iqtisadi islahatların və sosial siyasətin real nəticəsi olaraq "Caspian Energy International Media Group" tərəfindən müəyyən edilən investisiya reytinqində Naxçıvan 2018 və 2019-cu illərdə ən yüksək ümumi bal toplayaraq qalib oldu.

Beləliklə, muxtariyyət yaşı 95 ildən çox olan Naxçıvanımızın tarixinə qızıl hərflərlə yazılan 1995-2020-ci illər ərzində əldə edilən ən böyük nailiyyətlər ondan ibarətdir ki, muxtar respublika bu qısa zaman kəsiyində çıraq işığından enerji təhlükəsizliyinə, çörək qıtlığından ərzaq təhlükəsizliyinə, aqrar regiondan sənaye regionuna qədər əsrə bərabər uzun bir inkişaf yolu qət etdi.

*Davamlı və dinamik inkişafı özündə ehtiva edən özünəməxsus milli inkişaf modeli ilə tanınan Naxçıvan hazırda inkişafın keyfiyyətcə yeni mərhələsini yaşayır və yeni-yeni uğurlara nail olur. Naxçıvanın bugünkü nailiyyətləri məhz Heydər Əliyev siyasətinin, bu siyasətin Prezident cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən uğurla və qətiyyətlə davam etdirilməsinin məntiqi nəticəsidir. Bu əvəzsiz inkişaf kursu Naxçıvanı daha böyük zəfərlərə, möhtəşəm qələbələrə aparır.*

**Mehriban İMANOVA**
***Naxçıvan Muxtar Respublikası***
***Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru***

# İqtisadi sahədə startap layihələrin müsabiqə mərhələsi keçirilib



*Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan Biznes Mərkəzində "İdeyadan başlanğıca" startap layihəsinin müsabiqə mərhələsi keçirilib.*

Müsabiqəni giriş sözü ilə İqtisadiyyat naziri Tapdıq Əliyev açaraq layihənin mahiyyətindən, əhəmiyyətindən danışıb. Bildirib ki, həyata keçirilən hər bir layihə yeni ideyanın məhsuludur. Yeni ideyalar isə iqtisadiyyat, menecment, yeni texnologiyaların tətbiqi, turizm, səhiyyə, sosial xidmət sektorunda və demək olar ki, bütün digər sahələrdə yaranıb inkişaf edir. Dünya təcrübəsindən də görürük ki, bu ideyaların startaplar kimi layihələndirilərək real biznesə çevrilməsi və gələcəkdə uğurlu layihə kimi fəaliyyətini davam etdirməsində onların müəlliflərinə hərtərəfli dəstəyin göstərilməsi, ümumilikdə, aidiyyəti təşkilatların qayğısı əhəmiyyətli rol oynayır. Aparılan işlərin nəticəsi kimi tələbələrin nazirliyə təqdim olunan 16 startap layihəsi ekspert qrupu tərəfindən təhlil edilib, iqtisadi səmərəliliyi araşdırılıb və məqsədəmüvafiq sayılan 9 layihə müsabiqəyə dəvət olunub.

Tədbirdə İqtisadiyyat Nazirliyinin şöbə müdiri Orxan Abdinovun, "Naxçıvan" Universitetinin İqtisadiyyat fakültəsinin dekanı Zakir Məmmədovun çıxışları dinlənilib.

Sonra 9 startap müəllifinin təqdimatında hazırladıqları layihələr nümayiş etdirilib. Təqdimatlar zamanı layihələr üzrə müzakirələr aparılıb, təkliflər dəyərləndirilib. Bəyənilən layihələrin qalibləri diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb, eyni zamanda digər layihə iştirakçılarına da həvəsləndirici hədiyyələr təqdim olunub.

✍ **Türkan HÜSEYNLİ**

# Baytarlıq təbabəti ixtisasının tələbələri Süni Mayalanma Mərkəzində olublar

Naxçıvan Dövlət Universitetinin Baytarlıq təbabəti ixtisasında təhsil alan tələbələr Süni Mayalanma Mərkəzində olublar. Onlar burada heyvanların yemlənməsi, suvarılması, təmizlənməsi ilə bağlı işlərlə tanış ediliblər. Baytarlıq klinikasında olan tələbələr heyvanların müayinəsini, onlara qulluq prosesini izləyiblər.



Mərkəzin işçisi qeyd edib ki, damazlıq heyvanların cins tərkibinin yaxşılaşdırılmasında ən mütərəqqi zoobaytar tədbirlərdən biri də süni mayalanma üsuludur. Ona görə də muxtar respublikada 15 ilə yaxın bir dövrdə mal-qaranın cins tərkibinin yaxşılaşdırılması diqqətdə saxlanılıb, süni mayalanma tədbirləri həyata keçirilib. Törədici toxumların və digər avadanlıqların idxal olunmasına baxmayaraq, ötən dövrdə muxtar respublikamızda 83 min başa yaxın mal və camışda süni mayalanma aparılıb, 60 minə yaxın cins buzov alınıb. Buna görədir ki, artıq mal-qaranın cins tərkibində ciddi dəyişiklik vardır. Vurğulanıb ki, həm elmi-tədqiqat, həm də tədris-təlim mərkəzi rolunu oynayan mərkəz muxtar respublikada heyvandarlığın inkişafında yeni mərhələnin əsasını qoyacaqdır.

Qeyd edək ki, 2020-ci il fevral ayının 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov "2020-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında baytarlıq təbabətinin inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Sərəncam imzalayıb. Naxçıvan Dövlət Universitetində Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin təhsil haqlarından azad edilməsi həmin sahəyə göstərilən dövlət qayğısının bariz ifadəsidir. Tələbələrin gələcəkdə Dövlət Baytarlıq Xidmətində işlə təmin olunması ixtisaslı kadr hazırlığına mühüm töhfə verməklə yanaşı, yeni Süni Mayalanma Mərkəzinin yaradılması da onlara təcrübi dərslərin keçilməsində mühüm baza rolunu oynayır.

Sonda tələbələri maraqlandıran suallar cavablandırılıb.

**Səadət ƏLİYEVA**

# Torpaqların azad edilməsi Azərbaycanın məqsədyönlü və ardıcıl siyasətinin nəticəsidir

*Azərbaycan xalqı qədim dövlətçilik ənənələrinə sahibdir. Xalqımız tarixin müxtəlif dövrlərində öz dövlətini yaratmağa nail olmuşdur. Aratta dövlətindən başlayaraq dövlətçilik ənənələrimiz fasiləyə uğramadan davam etmişdir. Gülüstan və Türkmənçay müqavilələrindən sonra xalqımızın dövlətçiliyi məhdudlaşdırılsa da, 1918-ci ildə Azərbaycan öz müstəqilliyini elan edərək üçrəngli bayrağını qaldırmışdır. 1920-1990-cı illərdə sovet imperiyasının tərkibində öz nisbi müstəqilliyini saxlayan Azərbaycan 1991-ci ildə imperiyanın parçalanmasından sonra yenidən müstəqilliyini elan etmişdir. Xalqımızın müstəqillik ideyalarının yaşadılmasında və yenidən bərpa edilməsində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin böyük rolu olmuşdur. Azərbaycanın müstəqillik uğrunda mübarizə apardığı dövrdə onun azadlıq və müstəqilliyinin simvolu olan üçrəngli bayraq 1990-cı il noyabrın 17-də ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında qaldırılmışdır. Bu hadisəyə qiymət verən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: **“Bizim müstəqilliyə gedən yolumuz o gündən başlamışdır. Məhz Xalq Cümhuriyyətinin bayrağının dövlət bayrağı kimi qəbul olunması Azərbaycanı müstəqilliyə daha da yaxınlaşdırmış və ölkəmizdə gedən proseslərə güclü təkan vermişdir”.***



1993-cü ildə ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasına Ali hakimiyyətə qayıtdıqdan sonra kövrək addımlarını atan Azərbaycan dövlətinin möhkəmləndirilməsi uğrunda ardıcıl mübarizə aparmağa başladı. Həmin dövrdə bu o qədər də asan deyildi. 1992-1993-cü illərdə Dağlıq Qarabağ, onun ətrafındakı 7 rayon – Kəlbəcər, Laçın, Qubadlı, Cəbrayıl, Zəngilan, Ağdam və Füzuli rayonları Ermənistanın və onun havadarlarının silahlı qüvvələri tərəfindən işğal olunmuşdu. Azərbaycan dövlətinin yeritdiyi ardıcıl və məqsədyönlü siyasət nəticəsində BMT Təhlükəsizlik Şurası 1993-cü ildə Ermənistanın işğalçılıq siyasətini pisləyən 822, 853, 874 və 884 nömrəli qətnamələri qəbul etmiş, Ermənistan ordusunun Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılmasını tələb etmişdir. Lakin işğalçı Ermənistan BMT-nin icra aparatının olmamasından istifadə edərək nəinki torpaqlarımızı tərk etməmiş, hətta erməniləri orada məskunlaşdırmağa başlamışdır. Avropadakı havadarlarına güvənən Ermənistan qəsdən danışıqlar prosesini uzadaraq bu torpaqları sahiblənməyə çalışmışdır. Bu münaqişəni nizamlamaq üçün yaradılan ATƏT-in Minsk qrupu isə fəaliyyətsiz və ikiüzlü mövqe tutaraq bu münaqişəni dondurmağa çalışmışdır. Lakin ulu öndər Heydər Əliyev Avropa dövlətlərinin ikili standartlara əsaslanan siyasəti ilə barışmamış, Azərbaycan torpaqlarının geri qaytarılmasına yönələn xarici siyasətini ardıcıl şəkildə davam etdirmişdir. Xalqımızın haqq işinin dünya ictimaiyyətinə çatdırılması və respublikamız ətrafındakı informasiya blokadasını yarmaq üçün, hər şeydən əvvəl, müharibə dayandırılmalı, dinc şərait təmin edilməli idi. Bu məqsədlə 1994-cü ildə atəşkəs əldə edilməsi mühüm addım oldu. 1994-cü il sentyabrın 20-də imzalanmış “Əsrin müqaviləsi” ölkəmizin beynəlxalq nüfuzunun və mövqeyinin möhkəmləndirilməsinə güclü təkan verdi. Azərbaycan Respublikasının beynəlxalq nüfuzunun gücləndirilməsində mühüm addımlardan biri də 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin “Sülh naminə tərəfdaşlıq” proqramının çərçivə sənədini imzalaması oldu. Azərbaycan Respublikasının çoxtərəfli diplomatik siyasəti, NATO ilə əməkdaşlığın genişləndirilməsi ölkəmizin beynəlxalq aləmə inteqrasiyasında mühüm rol oynadı. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında “Tərəfdaşlıq və Əməkdaşlıq Saziși” (TƏS) imzalandı. Ümummilli liderin uzaqgörən, daxili və xarici siyasətinin, bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi olaraq 2001-ci il yanvarın 17-də Azərbaycan Respublikası Avropa Şurasının tamhüquqlu üzvlüyünə qəbul edildi. 2001-ci il yanvarın 25-də Strasburqda dövlətimizin üçrəngli bayrağı ucaldıldı. Ümummilli lider Heydər Əliyev bu hadisəni yüksək qiymətləndirərək demişdi: ***“Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət***



***kimi tanımasıdır, həm də Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır”.***

Ulu öndərin davamçısı Prezident cənab İlham Əliyevin qətiyyətli mövqeyi nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı. 2003-cü il yanvarın 27-də Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və qurumun Büro üzvü seçilməsi müstəqil Azərbaycan Respublikasının yeritdiyi xarici siyasətin mühüm uğurlarından biri oldu. AŞPA 2005-ci il yanvarın 25-də Dağlıq Qarabağ məsələsi ilə bağlı 1416 saylı qətnamə qəbul etdi. Lakin beynəlxalq təşkilatların icra mexanizminin olmamasından istifadə edən Ermənistan silahlı qüvvələri Qarabağdan çıxmadı.

Azərbaycan Respublikasının beynəlxalq layihələrdə uğurla iştirakı da onun beynəlxalq nüfuzunu artırdı. Azərbaycan Respublikası 2006-cı ildə Avropa İttifaqı ilə enerji məsələləri üzrə strateji tərəfdaşlığa dair anlaşma imzaladı, 2008-ci ildə isə ittifaqın “Şərq tərəfdaşlığı” proqramına qoşuldu. Azərbaycan Respublikası və Avropa Komissiyası arasında “Cənub qaz dəhlizi haqqında Birgə Bəyannamə” imzalandı. Bununla yanaşı, “Azərbaycan Respublikası və Avropa Komissiyası arasında 2011-2013-cü illər üzrə Milli İndikativ Proqrama dair Anlaşma memorandumu” imzalandı. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Avropa Şurası Parlament Assambleyasının Strasburqda keçirilən sessiyasındakı nitqində demişdir: ***“Dağlıq Qarabağ və onun ətrafında yerləşən yeddi rayon iyirmi ildən artıqdır ki, işğal altındadır. Bu, çox böyük ədalətsizlikdir. Dağlıq Qarabağ Azərbaycanın tarixi ərazisidir. Dünyanın ən ali beynəlxalq orqanı – BMT-nin Təhlükəsizlik Şurası erməni işğalçı qüvvələrinin işğal olunmuş ərazilərdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamə qəbul edib. Təəssüf ki, öncə qeyd etdiyim kimi, bu qətnamələr icra edilməyib. Bu, bir daha ikili standart siyasətini göstərir. Çünki bəzən görürük ki, BMT-nin qətnamələri bir neçə saat ərzində icra edilir. Bizə gəldikdə isə bu, iyirmi ildən çox çəkir. Mexanizm isə yoxdur. Ermənistan əraziləri tərk etmək istəmir”.***

Azərbaycanın beynəlxalq nüfuzunun möhkəmləndirilməsində İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatının üzv dövlətləri ilə qurulan çoxtərəfli əlaqələrin əhəmiyyəti böyükdür. Bu baxımdan Heydər Əliyev Fondunun fəaliyyəti də müstəsna əhəmiyyətə malikdir. Heydər Əliyev Fondunun təşkilatçılığı ilə başlanılan “Xocalıya ədalət” kampaniyası çərçivəsində reallaşan tədbirlər də xalqımızın haqq işinin dünyaya tanıdılmasında mühüm yer tutmuşdur. Aparılan danışıqlar prosesində dövlət başçısı cənab İlham Əliyevin dəfələrlə və birmənalı olaraq ***“Azərbaycanın ərazi bütövlüyü danışıqların mövzusu deyil, olmayıbdır və olmayacaqdır”*** fikrini irəli sürməsi ölkəmizin milli mənafelərinin qorunması şərtilə münaqişənin ədalətli şəkildə həll olunacağı ilə bağlı ümidləri daha da artırmışdır.

Dövlətimizin yeritdiyi uğurlu xarici və daxili siyasət Azərbaycan xalqının haqq işini dünyaya tanıtdı, ölkəmizin hərbi potensialını artırdı. Elə bunun nəticəsidir ki, Vətən müharibəsinin ilk günlərindən uğur qazandıq. Məlum olduğu kimi, 27 sentyabr 2020-ci ildə başlayan 44 günlük azadlıq müharibəsi nəticəsində torpaqlarımızın böyük bir qismi – Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı, Şuşa, Hadrut, Suqovuşan, Xocavənd, Laçın və Xocalı rayonlarının kəndləri işğaldan azad olundu. Azərbaycan Ordusunun hücumuna davam gətirməyən düşmən noyabrın 10-da kapitulyasiya haqqında Bəyanatı imzalamağa məcbur oldu. Bəyanata uyğun olaraq noyabrın 20-də Ağdam, noyabrın 25-də Kəlbəcər, dekabrın 1-də isə Laçın rayonu işğaldan azad edildi. Biz Azərbaycanın bütün elm adamları da Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin siyasətini bəyənir və dəstəkləyirik. Xalqımız kimi canımız və qanımızla ordumuzun arxasındayıq. Qarabağ Azərbaycandır! Var olsun, Azərbaycan və Azərbaycan xalqı!

**Vəli BAXŞƏLİYEV**
***AMEA-nın müxbir üzvü***



# Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib



Ermənistanın sentyabrın 27-də ölkəmizə qarşı növbəti hərbi təcavüzünə cavab olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bölmələri torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə Vətən müharibəsinə başladı və 44 gün ərzində davam edən döyüşlər müzəffər Ordumuzun parlaq Qələbəsi ilə nəticələndi. Döyüş əməliyyatı planlarının peşəkarlıqla hazırlanması, yüksək texnologiyaların tətbiqi, müxtəlif qoşun növlərinin fəaliyyətinin səmərəli əlaqələndirilməsi, havada mütləq üstünlüyün əldə edilməsi, ordumuzun manevr qabiliyyəti, digər taktiki və strateji üstünlüklər düşmənin xeyli sayda itkilər verərək geri çəkilməsinə səbəb oldu. Vətən müharibəsində könüllü olaraq da döyüşə atılan mübariz igidlərimiz torpaqlarımızın azadlığı uğrunda son damla qanlarına qədər böyük şücaətlə döyüşdülər. Noyabrın 8-də Qarabağın tacı olan Şuşa şəhərinin azad edilməsi dünya hərb tarixinə düşəcək unikal hərbi əməliyyatlardan biri, eyni zamanda ordumuzun Zəfər Günü kimi yaddaşlara əbədi həkk olundu.

Təbii ki, müharibəni itkisiz qazanmaq qeyri-mümkündür. Azərbaycan Respublikası Müdafiə Nazirliyindən verilən rəsmi açıqlamaya əsasən Vətən müharibəsində Silahlı Qüvvələrimizin 2783 hərbi qulluqçusu həlak olub. Onların sırasında 103 hərbi qulluqçunun DNT analiz metodu ilə şəxsiyyətinin müəyyən edilməsi üzrə işlər davam etdirilir. 100-dən artıq hərbi qulluqçumuz isə itkin düşmüş hesab olunur. Onların tapılıb ailələrinə məlumat verilməsi üçün zəruri tədbirlər görülür. Hazırda 1245 hərbi qulluqçumuzun tibb müəssisələrində müalicəsi davam edir.

Ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı müvafiq sərəncama əsasən Vətən müharibəsi şəhidlərinin yad edilməsi üçün dekabrın 4-ü saat 12[00]-da bir dəqiqəlik sükut elan edilib. Azərbaycanın bütün ərazilərində olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da torpaqlarımızın azadlığı uğrunda vuruşaraq şəhidlik zirvəsinə ucalan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Avtomobillərin, sərnişin qatarlarının və piyadaların hərəkəti bir dəqiqəlik dayandırılıb, muxtar respublikanın bütün məscidlərində qılınan cümə namazlarından sonra “Vətəni sevmək imandandır”, “İslamda şəhidlik zirvəsi” mövzularında maarifləndirici söhbətlər aparılıb, xütbələr oxunub, şəhidlərimizin ruhuna dualar edilib.

**✍ Nail ƏSGƏROV**

* * *

Vətən müharibəsi şəhidlərinin əziz xatirəsi Naxçıvan Qarnizonu Qoşunlarında da yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra çıxış edənlər müzəffər Ordumuzun qələbəsindən və şəhidlərimizin xatirəsinin yad edilməsinin əhəmiyyətindən danışıblar. Günnüt əməliyyatının və II Qarabağ müharibəsinin iştirakçısı zabit Renat Şıxnəbiyev döyüşlər barədə təəssüratlarını bölüşüb.



Saat 12[00]-daVətən müharibəsi şəhidlərinin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonda şəxsi heyətin təntənəli keçidi olub.

**Kənan CƏLİLOV**

# Hərbçilərlə görüş keçirilib



Vətən müharibəsində qazanılan Qələbə münasibətilə Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin təşkilatçılığı ilə Əlahiddə Ümumqoşun Ordu Komandanlığının Tədris Mərkəzində əsgər və zabitlərin psixoloji hazırlıq vəziyyətinə həsr olunmuş tədbir keçirilib. Əvvəlcə, Vətənimizin ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Dövlət Himni səsləndirilib.

Əlahiddə Ümumqoşun Ordu Komandanının hüquq işləri üzrə köməkçisi, kapitan Amil Hacıyev Qarabağ döyüşlərində qəhrəmanlıq göstərmiş əsgər və zabitlərin döyüşlərdə göstərdikləri şücaətlərdən danışıb. Bildirib ki, müasir ordu quruculuğu nəticəsində ölkəmiz hərbi sahədə böyük üstünlük qazanıb. O, başda Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev olmaqla, bütün ordumuza Azərbaycan xalqına bu Qələbə sevincini bəxş etdikləri üçün minnətdarlığını ifadə edib.

Mərkəzin psixoloji ekspertiza bölməsinin böyük eksperti, I dərəcəli ədliyyə qulluqçusu Fariz Səyyadov Silahlı Qüvvələrimizin Qarabağ müharibəsi zamanı əsgər və zabitlərinin düşmən təxribatının qarşısının alınmasında göstərdikləri rəşadət və igidlikdən danışaraq tarixi Qələbə münasibətilə əsgər və zabit heyətini təbrik edib.

Mərkəzin Ekspertiza bölməsinin eksperti, III dərəcəli ədliyyə qulluqçusu Valeh Fərəcov bildirib ki, döyüşçülərin fəaliyyətinin səmərəliliyi onun psixikasının, döyüş şəraitinin və tapşırığın yerinə yetirilməsinin tələblərinə uyğun şəkildə cərəyan etməsinə əsaslanır.

Sonda mərkəzin ekspertləri bir daha əsgər və zabitlərimizi Qələbə münasibətilə təbrik edib, onlara xidməti tapşırıqların yerinə yetirilməsində uğurlar arzulayıblar.

***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin mətbuat xidməti***

# Gözəllikdən ilhamlanan səma şairi – Cavid Əfəndi



*Zamanın hökmünə sığmayan, dövrünü qabaqlayıb ondan irəlidə duran Hüseyn Cavid! Bəşəriyyətin qurtuluşuna çalışan səma şairi, gözəllikdən ilhamlanan Cavid Əfəndi! Bütün əsərlərində həqiqət axtaran, yerdəki topluma ucalardan uca göy idrakı aşılayan, ədalətsizliyə qarşı hər zaman barışmaz olan Hüseyn Cavid! Zamandan üstün bir zəka! Bu gün görkəmli səma şairimiz Hüseyn Cavidin xatirə günüdür!*

***Yarəb bu nə dəhşət, nə fəlakət***
***İblisəmi uymuş bəşəriyyət?***

– deyən böyük romantik, filosof şair Hüseyn Cavidin faciəsi onda idi ki, səmalarda xəyaldan ucaltdığı söz məbədi yer həqiqətləri ilə toqquşdu. Bu toqquşma görkəmli dramaturq-şairimizi XX əsrin 30-cu illərindəki tariximizin yaddaşına ən ağır illər kimi həkk olunan repressiya qurbanlarından birinə çevirdi. Bəşəri ideyalar tərənnümçüsü, xalqını daim azad görmək istəyən Hüseyn Cavid Uzaq Sibirdə sürgün həyatına məhkum edildi. Buna baxmayaraq, öz əzmi və iradəsini, sabaha olan ümidini itirmədi, bir gün azadlığa qovuşacağına inandı. Özünə nəsib olmasa da, ruhu azadlığa qovuşdu...

...Zaman ötdü, yenə də haqqədalət zəfər çaldı. Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1981-ci il iyul ayının 1-də Hüseyn Cavidin anadan olmasının 100 illik yubileyinin keçirilməsi barədə verilən qərar şairin ikinci əsl bəraət sənədi oldu. Görkəmli dövlət xadiminin bu böyük qələm sahibinin timsalında milli poeziyamıza, onun nümayəndələrinə verdiyi yüksək qiyməti xalqımız 1982-ci ildə bir daha gördü. Həmin il oktyabr ayının 26-da görkəmli şair və dramaturq Hüseyn Cavidin cənazəsi Uzaq Sibirdən Vətənə gətirildi.

XX əsrin istedadlı simalarından olan Hüseyn Cavid 1882-ci ildə oktyabrın 24-də indiki Kəngərli rayonunun Şahtaxtı kəndində ruhani ailəsində dünyaya göz açıb. Əvvəlcə mollaxanada oxuyan Cavid böyük qardaşının yanında ərəb-fars dillərini öyrənib, sonra isə o zaman Naxçıvanda açılan "Tərbiyə" məktəbinə daxil olub. XX əsrin əvvəllərində Təbrizə gedərək orada Şərq fəlsəfəsi, tarix və ədəbiyyatı öyrənməyə səy göstərib. Romantik ruhlu gənc Cavid Türkiyəyə səfəri zamanı oradakı ali məktəblər, ziyalılar və ədəbi mühit ilə çox maraqlanıb. 1910-cu ilin əvvəllərində doğma diyara qayıdan gənc şair Qafqaz şəhərlərində müəllimliklə məşğul olub, eyni zamanda mətbuatda şeirləri ilə çıxış edib. 1919-cu ildə Bakıya qayıdan Cavid 1937-ci ilədək burada yaşayıb və dolğun yaradıcılıq dövrü keçirib. Daim həqiqət, ədalət, səadət axtarmaq yollarında çırpınan ədib 1941-ci il dekabrın 5-də vəfat edib.

"Həqiqət istərəm, yalnız həqiqət", – deyə bütün ömrü boyu çarpışan, yazıb-yaradan Hüseyn Cavidin yaradıcılığı elə bir haqdan qüdrət alıb ki, bu gün də aktual və mənalı səslənir. Şəxsiyyətinə və yaradıcılığına verilən yüksək qiymət haqqında düşünərkən böyük ədibin mərhum qızı Turan xanımın dediyi bu fikir yada düşür: *"Atama əsl bəraəti 1981-ci il iyul ayında "Hüseyn Cavidin 100 illiyi haqqında" Qərardan sonra hesab edirəm. Bu, ədalətin zəfər çalması idi. Bunun üçün mən, birinci növbədə, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevə minnətdaram".*

"Hüseyn Cavidin 100 illiyi haqqında" qərardan sonra respublikada onun ədəbi irsini daha geniş surətdə öyrənmək və xatirəsini əbədiləşdirmək üçün bir sıra işlər görüldü. Belə ki, şairin əsərlərinin toplanıb nəşr olunması, müxtəlif teatrlarda tamaşaya qoyulması, əsərlərinin Azərbaycan, rus, ərəb əlifbası ilə nəşr edilməsi, Bakı və Naxçıvan şəhərlərində Hüseyn Cavidə abidə ucaldılması və ev-muzeylərinin yaradılması, ulu öndər Heydər Əliyevin dahi ədibə olan sonsuz ehtiramla imzaladığı qərarla həyata keçirildi. Adıçəkilən qərardan sonra Naxçıvan şəhərində Cavidin vaxtilə qədim Əlixan məhəlləsində yaşadığı evdə yaradılan ev-muzeyi bütün cavidsevərlərin ziyarətgahına çevrildi.



Ulu öndərimiz hələ 1992-ci ildə Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışarkən Cavidin 110 illik yubileyinin muxtar respublika səviyyəsində qeyd olunmasını təşkil etdi və yubiley tədbirində yaddaqalan çıxışı ilə şair-dramaturqun irsinə yüksək qiymət verdi: ***"Hüseyn Cavid XX əsrdə Azərbaycan ədəbiyyatının, mədəniyyətinin, bütün Türk dünyasının ən görkəmli simasıdır, təkrarolunmaz bir şəxsiyyətdir, bir şairdir, bir yazıçıdır. Onun yaratdığı əsərlər böyük çətinliklərdən keçərək indi artıq hamımız üçün dərslik olubdur və dərslik olmalıdır".***

Daha bir qayğı isə dahi şairə ucaldılan möhtəşəm məqbərə oldu. Bu, ulu öndərin Cavidə və onun timsalında Azərbaycan ədəbiyyatına və incəsənətinə, daha geniş anlamda, Azərbaycan xalqına olan sevgi və ehtiramının ifadəsi idi.

2000-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin qayğısı ilə Cavidin ev-muzeyində əsaslı təmir və bərpa işləri aparıldı. Muzeyin ekspozisiyası dəyişdirilərək yenidən quruldu, maddi-texniki bazası zənginləşdirildi.

Ulu öndər Heydər Əliyevin himayəsi ilə 2002-ci ildə böyük ədibin anadan olmasının 120 illik yubileyi Azərbaycanda geniş qeyd edildi. Ümummilli liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Hüseyn Cavidin 125 illik yubileyi haqqında" 2007-ci il 17 aprel tarixli Sərəncamı və bu sərəncama uyğun olaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin həmin il may ayının 15-də imzaladığı Sərəncamla təsdiq edilmiş Tədbirlər Planına əsasən müxtəlif yubiley tədbirləri həyata keçirildi.

Cavidə böyük ehtiramın ifadəsini cavidsevərlər 10 il sonra yenə də gördülər, bu ehtiramın əbədiliyini təsdiq etdilər. Belə ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Böyük Azərbaycan şairi və dramaturqu Hüseyn Cavidin 135 illik yubileyinin keçirilməsi haqqında" 2017-ci il 24 oktyabr tarixli Sərəncamı Azərbaycan ədəbiyyatı xəzinəsinə tarixi-mədəni dəyərləri bəxş etmiş qüdrətli söz sənətkarına layiqli qiymətin təcəssümü kimi dəyərləndirildi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin yubileylərlə bağlı imzaladığı sərəncamlar və təsdiq etdiyi Tədbirlər Planına əsasən qədim diyarımızda yubiley tədbirləri yüksək səviyyədə təşkil olunub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş "Oxunması zəruri olan kitabların Siyahısı"na Hüseyn Cavidin "Azər" poemasının daxil edilməsi isə ədibin zəngin irsinin gənc nəslə çatdırılması sahəsində atılan mühüm addımdır.

*Ölümsüzlüyün mümkünlüyünü anlamadan, duymadan ömür sürür bəziləri. Amma əbədiliyi dərk edən yolçular da var ki, taleyin sərt dönəmlərindən mərdliklə çıxır, cismən qırılan ömürləri mənən əsərlərin yolyoldaşına çevrilir. Bəlaləri işıqlı əməlləri, nurlu ideyaları ilə nurlanıb sönməz günəş ömrü yaşayanlar, nurlu zəkaları ilə bəşəri aydınlandırdılar. Bəşəri ideyaları, nurlu əməli ilə ölməzlik zirvəsinə yüksələn Hüseyn Cavid kimi...*

✍ **Gülcamal TAHİROVA**

*Dekabrın 4-də Naxçıvan Dövlət Filarmoniyasında "Yallılar dünəndən bu günə" kitabının təqdimatı keçirilib.*

# "Yallılar dünəndən bu günə" kitabının təqdimatı keçirilib



Tədbiri Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova giriş sözü ilə açaraq bildirib ki, bu gün Naxçıvanda mövcud olan yallılarımızın araşdırılması, tədqiqi və təbliği istiqamətində təqdirəlayiq tədbirlər həyata keçirilməkdədir. 2018-ci ilin noyabr ayında "Yallı" (Köçəri, Tənzərə), Naxçıvanın ənənəvi qrup rəqsləri"nin YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi muxtar respublikamızda aparılan mədəni siyasətin bəhrəsi, tükənməz milli sərvətimiz olan xalq yaradıcılığının təbliği ilə bağlı tarixə yazılan mühüm uğurdur. Qeyd olunmuşdur ki, Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında" 2009-cu il 7 fevral tarixli bu Sərəncamı xalq yaradıcılığımızın digər nümunələri kimi, yallılarımızın da araşdırılması, təbliği və tədqiqinə başlanmasına rəvac verdi. Bir müddət sonra yallılarımızın ictimaiyyət tərəfindən öyrənilməsi, yaşadılması prosesinin geniş vüsət aldığı bir məqamda Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi və Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi tərəfindən yallı sənəti ilə bağlı tədqiqatlar aparıldı, bu irsin YUNESKO səviyyəsində qorunması sahəsində tədbirlər həyata keçirildi, "Şərur" Xalq Yallı Ansamblının fəaliyyəti və Naxçıvanda yallı sənəti ilə bağlı məlumatlar hazırlanaraq aidiyyəti üzrə təqdim olundu. Nəticədə, milli dəyərlərimizin tərkib hissəsi olan yallılarımızın YUNESKO-nun Təcili Qorunma Siyahısına daxil edilməsi kimi əhəmiyyətli tarixi-mədəni uğur qazanıldı.

"Ali Məclis Sədrinin 2018-ci il 24 dekabr tarixli "Şərur yallıları haqqında" Sərəncamı da xalq yaradıcılığının, xüsusilə yallılarımızın araşdırılması, öyrənilməsi və gələcək nəsillərə çatdırılması baxımından böyük qayğının daha bir ifadəsidir", – deyən Natəvan Qədimova qeyd edib ki, sərəncamdan irəli gələn vəzifələrin icrası ilə əlaqədar Şərur yallılarının reyestrinin aparılması məqsədilə Mədəniyyət Nazirliyində komissiya yaradılıb. Həmin komissiya tərəfindən bu günə kimi reyestrə 94 yallı növü daxil edilib.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Şərur yallıları haqqında" 2018-ci il 24 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Şərur yallılarının tədqiqi, təbliği və qorunması ilə əlaqədar Tədbirlər Planı"nın müvafiq bəndinə uyğun olaraq bu günlərdə "Yallılar dünəndən bu günə" kitabı işıq üzü görüb. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəfis tərtibatla çap edilmiş "Yallılar dünəndən bu günə" kitabında oxucular yallıların forması və bədii xüsusiyyətləri ilə yanaşı, yaranma tarixi və musiqi analizi haqqında da məlumat əldə etmiş olacaqlar. Həmin yallıların notları Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, Prezident təqaüdçüsü Əkrəm Məmmədli, Azərbaycan Respublikasının Əməkdar artisti Elman Əliyev və Kənan Məmmədli tərəfindən "Şərur" Xalq Yallı Ansamblının, eləcə də yallılarımızı yaddaşlarında yaşadan soydaşlarımızın ifasından nota alınıb. Yallılar haqqında məlumatların Azərbaycan, ingilis və rus dillərində təqdim edilən kitabın məziyyətlərindən biri də haqqında bəhs edilən yallıların bir neçəsinin videoyazısından ibarət kompakt diskin nəşrin üz qabığına əlavə edilməsidir.

"Yallılar dünəndən bu günə" kitabının işıq üzü görməsi münasibətilə mədəniyyət ictimaiyyətini və tədbir iştirakçılarını təbrik edən Natəvan Qədimova xalqımızın qədim yaddaşı olan yallıların tədqiqi, təbliği, həmçinin bu kitabın nəfis tərtibatla çap olunmasına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə muxtar respublikanın mədəniyyət ictimaiyyəti adından dərin minnətdarlığını bildirib.

Sonra Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi, kitabın rəyçisi Yaşar Xəlilov və "Şərur" Xalq Yallı Ansamblının direktoru, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Kimya Babayeva çıxış ediblər.

Təqdimat mərasimində kitaba əlavə edilən DVD diskdəki yallıların bir neçəsinin videonümayişi olub, sonda isə "Yallılar dünəndən bu günə" kitabı tədbir iştirakçılarına hədiyyə edilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

# Şahmat üzrə yoldaşlıq görüşü olub



Naxçıvan Muxtar Respublikası Culfa Rayon Uşaq-Gənclər Şahmat Məktəbi ilə İtaliyanın Roma şəhərinin "Ostia Scacchi" Şahmat klubu arasında yoldaşlıq görüşü keçirilib.

*Lichess.org* saytında onlayn keçirilən görüşdə qrossmeyster, FİDE və beynəlxalq usta şahmaçılar mübarizə aparıb. Yoldaşlıq görüşündə hər zəka sahibinə 90 dəqiqə (5+3) vaxt verilib.

Yekun nəticəyə əsasən muxtar respublikanın şahmat məktəbinin yetirməsi, beynəlxalq usta Toğrul Həsənzadə qalib adını qazanıb. Azərbaycan əsilli italiyalı şahmatçı, beynəlxalq usta Mirağa Ağayev ikinci, naxçıvanlı zəka sahibi Sadiq Qarayev isə üçüncü olub.

Qeyd edək ki, Naxçıvan Şahmat Federasiyası qarşıdakı günlərdə beynəlxalq görüşlərin yenidən keçirilməsini planlaşdırıb.

✍ **Ceyhun MƏMMƏDOV**

# Elmi-praktik konfrans

"Naxçıvan" Universitetində "İngilis (rus, alman və sair) dilinin xarici dil kimi tədrisində nəzəri və praktik məsələlər və onların həlli yolları" mövzusunda elmi-praktik konfrans keçirilib.

Konfransın əvvəlində ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə şəhid olmuş Vətən oğullarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Universitetin rektoru, filologiya üzrə fəlsəfə doktoru, dosent Nurlana Əliyeva konfransı açaraq bildirib ki, ali təhsil ocağında tələbələrin xarici dil biliklərinə mükəmməl şəkildə yiyələnmələri üçün ən müasir şərait yaradılıb. İngilis, fransız, rus və alman dilləri üzrə 4 şöbədən ibarət Xarici dillər kafedrası təşkil edilib. Fakültədəki hər bir tədris otağı müasir informatika texnologiyaları sistemi ilə təchiz olunub. Hər biri 20 nəfərlik iki linqafon otağı oxu-dinləmə dərslərinin tədrisi üçün tələbələrin xidmətinə verilib.

Universitetin Xarici dillər fakültəsinin müəllimləri İradə Cəfərova, Ruqiyyə Kərimova, Aybəniz Axundova çıxış ediblər.

Sonda konfrans iştirakçılarının sualları cavablandırılıb.

**Seyfur HACIMURADOV**

***İtmişdir***

Şərur rayon Oğlanqala kənd sakini Muradov Məmməd Ələkbər oğlunun adına verilmiş JN-240[A] inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 906